**Rüstəm İbrahimbəyov**

# HAVA MƏBƏDİ

**Povestlər**

qanun nəşriyyatı

**İbrahimbəyov R. HAVA MƏBƏDİ.** *Povestlər.*
Bakı, Qanun Nəşriyyatı, 2024, 528 səh.

Ölçü: 145x210 mm
Cild: yumşaq
Çapa imzalandı: 22.11.2023

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Müəllifin iştirakı ilə nəşrə hazırlayan: | Nəriman Əbdülrəhmanlı |
| Korrektor: | Lalə Əmirova |
| Texniki redaktor: | Aygül Yelmarlı |
| Mətn dizaynı: | Ramin Əli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-876-3

© Qanun Nəşriyyatı, 2024
© İbrahimbəyov R., 2024

Dünya şöhrətli dramaturq, görkəmli nasir, Azərbaycanın Xalq yazıçısı Rüstəm İbrahimbəyovun çoxcəhətli yaradıcılığının mühüm sahəsini təşkil edən nəsr əsərləri, o cümlədən, bir çox ekran əsərlərinin mövzusuna çevrilmiş povestləri ədəbiyyatımızın unikal hadisələrindəndir.

Təhkiyəsinin sadəliyi, fikirlərinin yığcamlığı və kibernetik dəqiqliyi, qələmə aldığı hadisələrin sözlə vizual görüntüsünü yaratmaq, insan qəlbinin gözlə görünməyən dərinliklərinə enmək istedadı, oxucuya təqdim elədiyi bənzərsiz mühit və qeyri-adi obrazlar onun nəsrini fərqləndirən xüsusiyyətlərdir.

Əminik ki, ədibin bu toplusuna daxil edilmiş əsərlər yeni nəsil Azərbaycan oxucusunun da zövqünü oxşayacaq.

## 9-CU XREBTOVIDA

Bu cənub şəhərində hamının tanıdığı əlli nəfər ancaq tapılar və bütün şəhərlərdə olduğu kimi, buranın da öz dəlisi – Mişoppa var.

Şəhər dik amfiteatr şəklində dənizə tərəf enir, əgər sahil bu amfiteatrın birinci cərgəsidisə, onda Mişoppanın yaşadığı 9-cu Xrebtovı küçəsini haradasa sonuncu cərgələrdə axtarmaq lazımdı. Hələ, az qala, on il əvvəl bura şəhər kənarı sayılırdı. İndi 9-cu Xrebtovıdan yuxarıda bir-birinə oxşar beşmərtəbəli evləri və müxtəlif təmtəraqlı adları olan çoxlu dümdüz küçələr salınıb, ona görə də buranı artıq şəhər kənarı hesab eləmirlər. Amma küçə bundan nə hamarlaşıb, nə evləri hündür olub, nə də ki, dənizə yaxınlaşıb, elə əvvəlki kimi, məhəllədən məhəlləyə burula-burula uzanır, sağ səkisi də sol səkidən xeyli hündürdü. Axşamlar, bürkü səngiyəndən sonra 9-cu Xrebtovının sakinləri ata-babalardan qalma adətlə küçəyə çıxır, səkilərə su çiləyir, xalça salır, alçaq oturacaqlarda, pilləkənlərin daş pillələrində oturub, ya da elə-belə tində durub oradan-buradan söhbət eləyir, nərd atır, armudu stəkanlarda çay içirlər.

Hətta bir neçə il əvvəl 9-cu Xrebtovıya asfalt çəkildi, keçən il isə Həmkarlar İttifaqının 12-ci qurultayı adı verildi, amma bu da küçədə bir elə dəyişikliyə səbəb olmadı; yalnız səkilərdə istirahət eləyən adamların yanlarından ötən maşınların sayı çoxalmış və uşaqlar üçün futbol oynamaq rahat olmuşdu. Sakinlər üçün 9-cu Xrebtovı – elə 9-cu Xrebtovı olaraq qaldı...

Yaxınlıqda yerləşən üç Dağlıq, yeddi Paralel və qalan xrebtovılar həm zahirən, həm də yaşayış tərzlərinə görə, 9-cuya çox oxşayırlar, bir müddət əvvəl 9-cu Xrebtovıda baş verən hadisələr də həmin küçələrin hər hansı birində baş verə bilərdi...

O gün Mişoppa, həmişə olduğu kimi, vağzalyanı taksi dayanacağındakı "Volqa"ların arasında durdu. Ağabalanın gəlişi axşama yaxın gözlənilirdi. Mişoppanın təsəvvüründə axşam saat altıda başlanırdı, evə vaxtında çatmaq üçün o, dayanacaqdan altının yarısında, Tbilisidən gələn axşam qatarını gözləmədən tərpənməli idi. Amma beş dəqiqə vaxtı qaldığına görə, müştəri götürə biləcəyinə ümidini itirmirdi: bəxti gətirib, müştərisi düşmüş yoldaşları gah sağdan, gah soldan yola düşürdülər, bu da onu ruhlandırırdı.

Müharibədən əvvəl Mişoppa 9-cu Xrebtovıda yeganə sürücü idi, raysovetin sədrini gəzdirirdi. Amma bərk kontuziya aldığına görə, cəbhədən qayıdandan sonra həkimlər ona maşın sürməyə icazə vermədilər. Uzun müddət buna dözən Mişoppa şəhəri dolaşıb, yad adamlardan xahiş eləyirdi ki, onun başını əlləşdirib saçlarının dibinin necə yumşaq olduğunu görsünlər. Amma şəhərdə ilk "Pobeda"lar peyda olan gün Mişoppa təqaüddən imtina elədi, ona maşın versinlər deyə, müxtəlif təşkilatlara ayaq döyməyə başladı. Evdə də, küçədə də, getdiyi idarələrdə də ona artıq vaxtının keçdiyini, heç kəsin maşın etibar eləməyəcəyini nə qədər başa salmağa çalışsalar da, Mişoppa inadından dönmür, ümidini itirmirdi.

Bu müddətdə isə 9-cu Xrebtovıda sürücülərin sayı get–gedə artırdı. Mişoppanın maşın sürən vaxtlarında yenicə ayaq açıb yeriyən uşaqların indi forsla "Pobeda"ları, "ZiS"-ləri, "Studbekker"ləri sürməsi ona yer eləyirdi, Ağabala "Volqa" sürməyə başlayandan sonra isə rahatlığını tamam itirdi. Ağabaslanın arvadı olan bacısı Sona Mişoppanı çimmək üçün dilə tutanda onun üçün beləcə parlaq və açıq-qəhvəyi rəngli "Volqa" alacağına söz verirdi.

İki il bu cür davam elədi, amma günlərin bir günü Mişoppa daha dözmədi, mühərrik kimi nərildədi, qoşquları basdı, gözəgörünməz dəstəkləri işlətdi, həyətdən bayıra atıldı, ucadan siqnal verə-verə küçələrin canına düşdü.

Həmin vaxtdan onun işi-gücü çoxaldı. Səhər tezdən Moskva qatarını qarşılamaq üçün vağzala cumurdu. Sonra xaltura axtara-axtara bütün şəhəri *"maşın"*la dolaşırdı. Axşama yaxın yenə vağzalyanı taksi dayanacağında öz yerini tuturdu.

Hərdən Mişoppa cəbhə *"qazik"*ini xatırlayır, bütün günü onu *"sürür"*dü. Vağzal əvəzinə mebel mağazasına yollanır, mebel almış adamlara öz xidmətini təklif eləyirdi. Belə günlərdə o, əlavə çətinliklərlə üzləşirdi – yük nəqliyyatının gedişi qadağan edilmiş küçələrə girməyib dövrə vurmalı olurdu. Bu, çoxlu vaxt və qüvvə tələb eləyirdi, amma Mişoppa vicdanlı sürücü idi, küçə hərəkəti qaydalarını pozmamağa çalışırdı.

Bu illər ərzində 9-cu Xrebtovının cavanlarından başqa heç kəsə bir dəfə də olsun Mişoppanın *"maşını"* gərək olmamışdı. Bununla belə, o, ruhdan düşmürdü, Ağabala tutulandan sonra Səfərəlinin pivə dükanında işə girmiş bacısı Sonaya kömək eləməyə itirdiyi iki saatı isə hədər getmiş vaxt sayırdı...

Düz saat altının yarısında, uşaqlı ər-arvad onun maşınına minməkdən boyun qaçırandan sonra Mişoppa mühərriki işə saldı, üçüncü sürətlə evlərinə tərəf götürüldü. Vağzalyanı meydan avtobuslar, taksilər və cürbəcür dükanların arasında vurnuxan adamlarla dolu idi; meydanı keçənəcən Mişoppa bir kimsəni basmamaq üçün aramsız siqnal verməli oldu; o, şəhərdə yeganə sürücü idi ki, siqnal verəndə milis bir söz demirdi.

Mişoppa vağzal meydanından Lenin prospektinə, sonra Basin küçəsinə dönüb, tramvay xətti boyu getdi. Mühərrik yaxşı çəkir, yalnız səsi həmişəkindən azacıq küylü çıxırdı, amma bu, Mişoppanı narahat eləmirdi: yoxuşa qalxanda belə şeylər tez-tez olurdu, axı Mişoppanın yaşı artıq qırxı ötmüşdü.

Kirov prospektinin tinində onu tramvay haqladı. Konduktor başını pəncərədən çıxarıb Mişoppaya minməyi təklif elədi. Bu şirnikdirici olsa da, Mişoppa boyun qaçırdı. Tramvay bir müddət yanaşı getdi, sonra yavaş-yavaş onu ötdü. Amma Təzə bağın yanında, yol tənzimləyicisi Şamaxı yolu ilə gələn maşınları buraxmaq üçün hərəkəti saxlayanda Mişoppa tramvayı haqlayıb, hətta keçdi də, çünki tənzimləyici Mişoppanı görən kimi, dərhal çubuğu ilə cəld hərəkət eləyib onu salamladı və növbəsiz buraxdı.

Təzə bağın yanından Səfərəlinin dükanına əl uzatsan, çatardı, Mişoppa da bir neçə dəqiqəyə ora yetişdi.

Səfərəli yenicə bir neçə yeşik pivə almışdı, Mişoppanı görəndə sevindi. O, yeşiklərin üstündə oturub, sinəsinin, boynunun tərini silirdi, adətən, şüşə sağ gözü piştaxtanın üstündə su ilə dolu stəkanda olardı, bu gün isə yerindəydi.

– Maşını qoy, pivələri daşımaq lazımdı, – Səfərəli dilləndi.

Mişoppa dönüb, evə tərəf götürüldü. Bədəni bir xeyli sağa, sonra sola əyildi, başı isə dala elə atıldı ki, yalnız göyü və evlərin yuxarısını görürdü.

Səfərəli dükanın qapısı ağzındakı qaz balonunun üstündə oturmuş, Mişoppanın hərəkətlərinə göz qoyan Sonaya:

– Bəlkə sən də evə gedəsən? – dedi, amma Sona dinmədi.

Küçədə bir neçə maşın dayanmışdı, həmişəkinə nisbətən adam az idi. Tində, Davudun çəkməçi dükanının yanında Murad, kiçik qardaşı tələbə Sabir, onların bacısının adaxlısı Tofiq və daha bir-iki nəfər söhbət eləyirdilər. Milisioner Mustafa öz darvazalarının yanında qəzet oxuyurdu.

– Səninlə deyiləm? Yeri get evə! – Səfərəli səsini qaldırdı.

Sona yenə dinmədi.

– Axşamın xeyir, – Səfərəli qonşu həyətdən çıxan qocanın salamını aldı. – Səni heç kəs yanımda işləməyə məcbur eləməyib, özün gəldin. Hamı bunu bilir. Axşamın xeyir...

Dükanın yanından ötüb-keçənlər Səfərəli ilə salamlaşır, o da hamının salamını alırdı.

– Onu boş yerə hirsləndirmək nəyə lazımdı? Mən deyənə bax. Evdə sənə toxunmaz, – Səfərəli şüşə gözünü rahatladı.

O gözü düzəldən həkim ölçüdə səhv eləmişdi, üst qapağı əməlli-başlı sürtürdü. Buna görə də Səfərəli qayırma gözdən nadir hallarda – bayramlarda, toylarda, qortorqa çağrılanda, yoxlama vaxtı – istifadə eləyirdi.

– Özümə təzə göz də düzəltdirə bilmədim, – Səfərəli şikayətlənib yenə Sonaya üz tutdu. – Bu nə hərəkətdi eləyirsən? Onu daha da hirsləndirəcəksən, vəssalam. Yeri get.

Sona kirimişcə yerindən qalxıb dükana girdi, *“Təkrar uçot”* yazılmış lövhəciyi götürüb, piştaxta arxasında oturdu.

Bu vaxt Mişoppa evlərinə çatdı, siqnal verdi, darvaza açılınca maşını geri verdi, bir də siqnalı basıb, arxa sürətlə həyətə girdi.

– Bir bunlara bax, – Səfərəli tində duranlara tərəf istehza ilə ağzını əydi. – Başqa vaxt yanımdan əl çəkmirdilər, indi isə heç yaxına da gəlmirlər. Onlara elədiyim yaxşılıq burunlarından gəlsin, hamısı mənə borcludu... Ay uşaqlar! Gəlin pivə vurun, qonaq eləyirəm!

– Sağ ol, – biri cavabında qışqırdı. – Bir azdan gələrik.

– Qancıq balaları, – Səfərəli astadan dedi, – gözüm görməyəydi onları...

Sonanı evə göndərə bilmədiyinə görə, Səfərəli istəyirdi ki, yanında adamlar olsun, amma təkrar dəvət eləməyi şəninə sığışdırmırdı...

Mişoppa otağa girəndə Ağabala artıq paltarını dəyişmişdi. Altı il bundan əvvəl, tutulmağına bir ay qalmış aldığı ağ çesuça kostyum indi əyninə dar idi. Mişoppa sevinclə movuldadı, ona tərəf atıldı, onlar uzun-uzadı bir-birlərinin əllərini sıxdılar. Sonra Ağabala çamadanından bir cüt alt paltarı, alışqan və maşın açarı üçün breloklu zəncir çıxardı – bunları Mişoppaya gətirmişdi.

Mişoppanın başı hədiyyələrə qarışan vaxt Ağabala uşaq çarpayısına yaxınlaşdı, çarpayının başına atılmış uşaq köynəklərinə, papaqlarına kədərlə baxdı. Şonra divara vurulmuş şəkillərdən birini seçib cibinə qoydu *(şəkildə, o, Sona və Mişoppaydı, Kislovodskda, şüşəli fəvvarənin yanında çəkdirmişdilər).*

Tində isə bu vaxt belə bir söhbət gedirdi:

– Beş ildi ki, onlara hər baxanda ürəyim ağrıyıb, – Tofiq başı ilə dükana işarə elədi: orada Səfərəli hələ də piştaxtanın yanında durub əl-qolunu ölçə-ölçə Sonaya nəsə deyirdi. – Bilsəydim Ağabala bir söz deməyəcək, çoxdan bu işə bir əncam çəkərdim.

– Görək özü nə deyəcək, – maşınını iki oğlan uşağına yudurdan Həsən dilləndi.

– Nəsə evdən çıxmağa heç tələsmir – Sabir istehza ilə dedi.

– Sən mumla, – Murad kiçik qardaşının sözünü kəsdi.

– Qardaşının sözündə haqq da var. Mənim bu mədyanlılardan heç gözüm su içmir! – Həsən az sonra dedi.

– Ağabala mədyanlıdı?

– Tərtəmiz mədyanlıdı! Sizi bilmirəm, amma mən onların arasında bir kişi görməmişəm! Dünən yenə orda idim...

– Ay uşaqlar! – Səfərəli yenə çağırdı. – Həsən, Murad! Pivə sizi gözləyir, gəlin!

– Neyləyək? – Murad astadan dedi. – Yaxşı deyil, kişi dəvət eləyir.

– Mən getməyəcəyəm, – Tofiq dillənib çömbəldi. – Sizin öz işinizdi, gedirsiniz, gedin!

Hamı başa düşürdü ki, Ağabala onları Səfərəlinin dükanının yanında görsə, yaxşı düşməyəcək, amma Səfərəlinin də xətrinə dəymək istəmirdilər – onu neçə illərdi tanıyır, hər gün də pivəsini içirdilər.

– Tofiq, Mahmud! – Səfərəli hələ də çağırırdı.

– Gəlirik, gəlirik, – Murad qışqırdı. – Bir dəqiqə.

– Mən getməyəcəyəm, – Həsən dedi.

– Ay-hay, bizim yazıçımıza baxın! – Tofiq qəfildən bağırdı. – Nə gönü qalın adammış! Söz-zad kar eləmir ona!

Hamı gözünü küçənin qarşı tərəfinə zillədi. Uzaqda prokuror İbrahimin oğlu Cahangir iki qızla evlərinə tərəf gəlirdi. Cahangir universitet qurtarmışdı, boş vaxtlarında da yazı makinasında nəsə çap eləyirdi, buna görə də 9-cu Xrebtovıda onu yazıçı adlandırırdılar.

Cahangir və qızlar qonşu evlərin pəncərələrində, qapılarında bir anda peyda olan qadınların həqarətli baxışları altında küçəni keçdilər.

– Onunla bir də danışmaq lazımdı, – Tofiq dedi. – Amma nə qızlardı! Mmm... – O, yırğalandı.

Qızlar – xüsusən də donu dizdən yuxarı olan qız – doğrudan da, qəşəng idilər, hətta Səfərəli də Sona ilə söhbətini kəsib onlara həris-həris baxırdı.

Qızları baxışları ilə bir-birilərinə – Səfərəli tində dayananlara, oradakılar isə maşından sıçrayıb düşən Nuru kişiyə – ötürürdülər; yuxarıda öz darvazasının ağzında qəzeti bir kənara atmış milisioner Mustafa da qızları gözləyirdi. O, həyətdə nahar eləyən çəkməçini çağırmadığına təəssüfləndi, amma qızlar artıq darvazaya yaxınlaşanda bu gözəl mənzərədən tək ləzzət almağa tabı qalmadığına görə, dözə bilməyib Davudu harayladı.